

# Maliyyə və mühasibat uçotu üzrə məsləhət xidmətləri (FAAS)

EY
Building a better working world

## «FAAS nədir?» sualını özünüzə neçə dəfə vermisiniz?

**Haqqımızda**

**FAAS** – Financial Accounting Advisory Services – auditor xidmətləri təcrübəsinə daxil olan müstəqil şöbədir.

**FAAS-ın MDB-də coğrafiyası**

Almatı | Bakı | Kiyev | Moskva | Nur-Sultan

**FAAS-ın müştərilərə xidmət göstərdiyi əsas sahələr:**

**FAAS-ın xidmətlərin göstərilməsinə yanaşması:**

**Xidmətlərin keyfiyyəti**

- Sahə üzrə spesifik biliklərə malik təcrübəli mütəxəssislər
- Müştərinin ehtiyaclarına uyğun layihə qrupunun seçimi

**Ən yaxşı təcrübələr**

- Müştəri problemlərinin daha effektiv həlli üçün ən yaxşı dünya təcrübələrindən istifadə

**Mürəkkəb məsələlərin həlli**

- Müştərilərimizin çoxşaxəli tapşırıqlarını həll edərkən audit, konsaltinq, hüquq, strategiya, vergi və sövdələşmələr kimi əlaqəli təcrübələrdən mütəxəssisləri və ekspertləri cəlb edə bilərik




## Əlaqə məlumatı




**Maksim Savostianov**
Partnyor, MDB-də Maliyyə və mühasibat uçotu üzrə məsləhət xidmətləri təcrübəsinin rəhbəri
Tel: +7 495 755 9868
maxim.savostianov@ru.ey.com



**Aliyə Qədirova**
Azərbaycanda maliyyə və mühasibat uçotu üzrə məsləhət xidmətləri təcrübəsinin rəhbəri
Tel: +994 12 490 7020
aliya.gadirova@az.ey.com



**Yevgeniya Zayçikova**
Partnyor, Maliyyə və mühasibat uçotu üzrə məsləhət xidmətləri
Tel: +7 495 755 9864
eugenia.zaichikova@ru.ey.com



**Oleq Stratonov**
Partnyor, Maliyyə və mühasibat uçotu üzrə məsləhət xidmətləri
Tel: +7 495 755 9933
oleg.stratonov@ru.ey.com

FAAS mütəxəssisləri MHBS, ABŞ ÜQMUP, Rusiyanın mühasibat uçotu standartları, idarəetmə mühasibatlığı, büdcənin formalaşması, mühasibatlıq və maya dəyərinin müəyyənləşdirilməsi sahəsində geniş təcrübəyə, həmçinin uçot İT sistemləri və İT həllərinin dəstəklənməsi və tətbiqi təcrübəsinə malikdirlər.

FAAS mütəxəssisləri tərəfindən təqdim olunan dörd əsas xidmət qrupu:

### 1. Maliyyə uçotu və hesabatlılığın keyfiyyətinin artırılması

- Xaricdə biznes satın alındığı zaman şirkətin ləngimədən MHBS-yə və Rusiyanın mühasibat uçotu standartlarına keçirilməsi. MHBS-nın ilk dəfə tətbiqi
- Uçot siyasətinin təhlili, təkmilləşdirilməsi və tətbiqi
- Mühasibatlıq açıqlamalarının hazırlanmasında köməklik (məlumatların strukturu və siyasət)
- Yeni standartların qəbul edilməsi və tətbiqi də daxil olmaqla hesabatların hazırlanması baxımından qanunvericilik tələblərinin təhlili
- Yeni uçot tələblərinin şirkətin maliyyə funksiyasına və fəaliyyətinə təsirinin müəyyənləşdirilməsi
- Gəlirlərin tanınması, şirkətin maliyyə funksiyasının dəstəklənməsi məsələləri də daxil olmaqla uzunmüddətli müqavilələrin uçotu (MHBS-yə, Rusiyanın mühasibat uçotu standartlarına uyğun mühasibat uçotu)

**Nəticə**

1. Biznes satın alınarkən uçot mühitinin standartlaşdırılması
2. Hesabatlılığın keyfiyyətinin və etibarlılığının artırılması
3. Hesabatlılığın hazırlanması qaydalarının aktuallığı və qanunvericiliyə uyğunluğu
4. Qanunvericilikdəki dəyişikliklərin maliyyə funksiyasına təsirinin müəyyənləşdirilməsi
5. Ən mürəkkəb uçot məsələləri üçün həllərin tapılması

### 2. Uçot prosesləri və İT-sistemləri

- Biznes satın alınarkən mühasibat uçotu proseslərinin və əsas parametrlərin uyğunlaşdırılması
- Maliyyə hesabatlarının bağlanması prosesi. Şirkətdə dövr sonu bağlanma prosesinin keyfiyyətinin və zamanlamasının təkmilləşdirilməsi
- Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında yeni mühasibat uçotu prinsiplərinin (MHBS, Rusiya mühasibat uçotu standartları) tətbiqi üçün İT həllərinin işlənib hazırlanmasında köməklik
- İstifadəçi ehtiyacları üçün idarəetmə informasiya sistemi (MİS) strukturunun işlənib hazırlanmasında metodoloji dəstək
- MHBS, Rusiya mühasibat uçotu standartlarının tələbləri nəzərə alınmaqla məhsulların, işlərin, xidmətlərin maya dəyərinin hesablanması qaydalarının hazırlanmasında köməklik

**Nəticə**

1. Biznesin satın alındığı zaman uçot proseslərinin, digər parametrlərin ahəngliyi
2. Vaxtında hazırlanmış yüksək keyfiyyətli maliyyə hesabatları
3. Şirkətin tələblərinə uyğunlaşdırılmış İT sistemi
4. İdarəetmə İT sisteminin mövcudluğu
5. Məhsulun düzgün istehsal xərcləri, onun təhlili və idarəedilməsi

### 3. Qanunvericilik, idarəetmə və maliyyələşdirmə

- Qanunvericilik tələblərinə uyğun olaraq əməliyyatların (birləşmələr və satınalmalar) uçotu
- Bir şirkətin satınalınması ilə bağlı mühasibat uçotuna və alış qiymətinin bölüşdürülməsinə köməklik
- Satın alınan şirkətin və ya aktivin qiymətləndirilməsi zamanı mühasibat uçotuna köməklik (due diligence)
- Xəzinədarlıq funksiyasının diaqnostikası və qiymətləndirilməsi
- Maliyyə alətlərinin, hedcinqin, borc alətlərinin, törəmə maliyyə alətlərinin uçotunda köməklik

**Nəticə**

1. Biznes (aktivlərin) satınalınması əməliyyatlarının, alış qiymətinin bölüşdürülməsinin uçotda əks etdirilməsi
2. Şirkətdə effektiv xəzinədarlıq funksiyası
3. Maliyyə alətləri MHBS-yə, ABŞ ÜQMUP-ə uyğun uçota alınması

### 4. Digər audit və mühasibat uçotu xidmətləri

- Auditin nəticələri əsasında auditorların şərhlərinin aradan götürülməsinə köməklik
- Qrupdaxili / şirkətdaxili üzləşdirmələrə, eləcə də debitor və kreditor borclarının, ödənilməmiş xərclərin, ödəniş hesablarının və məlumatların işlənməsi ilə bağlı səhvlərin üzləşdirilməsinə köməklik
- Təxirə salınmış vergilərin hesablanmasında köməklik
- Müştərinin ehtiyaclarına uyğunlaşdırılmış maliyyə uçotu üzrə təlim kurslarının təşkili, təqdimatların hazırlanması

**Nəticə**

1. Auditor şərhlərinin aradan götürülməsi
2. Məlumat massivlərin üzləşdirilməsi
3. Təxirə salınmış vergilərin düzgün hesablanması və uçota alınması
4. Keçirilən təlim kursların uçot funksiyasının keyfiyyətini artırması

EY
Daha yaxşı iş dünyasını qururuq

EY şirkəti müştərilər, insanlar və bütün cəmiyyət üçün uzunmüddətli dəyərin yaradılması və kapital bazarlarına inamın artırılmasına töhfə verərək daha yaxşı iş dünyasını qurmağa çalışır.

EY şirkətinin dünyanın 150-dən çox ölkəsində müxtəlif sahələrdə çalışan komandaları informasiya və texnologiyanın istifadəsi ilə məlumatlara olan etibarı təmin edir və onların doğruluğunu təsdiqləyir, müştərilərin inkişafına, dəyişməsinə və uğurla fəaliyyət göstərməsinə kömək edir.

EY şirkətinin audit, konsaltinq, hüquq, strategiya, vergi və sövdələşmələr sahəsində çalısan mütəxəssisləri bu gün dünyanın üzləşdiyi mürəkkəb məsələlərə yeni cavablar tapmaq üçün düzgün suallar verirlər.

EY adı, hər biri müstəqil hüquqi şəxs olan Ernst & Young Global Limited qlobal şirkətlər şəbəkəsinin bir və ya daha çox üzvünə aiddir. Ernst & Young Global Limited, üzvlərinin zəmanətləri ilə məhdudlaşan Böyük Britaniya şirkəti olaraq, müştərilərə xidmət göstərmir. EY şirkətinin fərdi məlumatları necə toplaması və istifadə etməsinə dair məlumatlar, habelə məlumatların qorunması haqqında qanunvericiliyə uyğun olaraq fiziki şəxslərin hüquqları ey.com/privacy səhifəsində təqdim edilir. Daha ətraflı məlumat almaq üçün buraya müraciət edə bilərsiniz: ey.com

MDB şirkətləri ilə qarşılıqlı əməkdaşlıq aparan EY, onların öz işgüzar məqsədlərinə çatmasına kömək edir. Moskva, Yekaterinburq, Kazan, Krasnodar, Novosibirsk, Rostov-Don, Sankt-Peterburq, Tolyatti, Vladivostok, Almatı, Atırau, Nur-Sultan, Bakı, Kiyev, Minsk, Daşkənd, Tbilisi və digər şəhərlərdə yerləşən 19 MDB ofisində 5,500 mütəxəssis çalışır.

© 2021-ci il “Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.” şirkətinin Azərbaycan Respublikasındakı filialı.
Bütün hüquqlar qorunur.

ey.com/en_az